# ELMİ ARAŞDIRMALARDA KİTABXANALARIN İNFORMASİYA FUNKSİYASININ ABUZƏR XƏLƏFOV KONSEPSİYASI

**Esmira Zərbaliyeva**

*BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin tyutoru*

Azərbaycan kitabxanaşünaslığında kitabxanaların informasiya funksiyasını araşdıran ilk alim professor Abuzər Xələfov olmuşdur. Alim müxtəlif dövrlərdə bu istiqamətdə araşdırmalar aparmış "Kitabxanaşünaslığa giriş" dərsliyinin III fəslində funksiya sözünün izahını vermiş, kitabxanaşünaslıq elm sahəsinin özünəməxsus funksiyalarını şərh etmişdir. Həmçinin alim kitabxanaların sosioloji əsaslara söykənməsini, cəmiyyətin sosial tələbatının ödənilməsindəki rolunu və bundan irəli gələrək yaranan və müxtəlif dövrlərdə elmi-texniki tərəqqinin vüsət almasından asılı olaraq formalaşan kitabxanaların sosial funksiyalarının geniş izahını vermişdir.

Kitabxanaların sosial funksiyasının müəyyənləşdirilməsi, onların müasir kitabxanaların fəaliyyətində ardıcıl olaraq istifadə edilməsi kitabxanaların cəmiyyətin inkişaf prosesinə və istiqamətinə təsirini gücləndirməklə, cəmiyyət qarşısında öz vəzifələrini həyata keçirmək imkanı verir. Alimin irsini araşdırdığımız zaman məlum olmuşdur ki, kitabxanaların əsas sosial funksiyaları arasında üstünlükinformasiya funksiyasına verilmiş, informasiyanın toplanması, təşkil olunması, kitabxanaların kataloq və kartotekalarında kitab və digər sənəd saxlayıcılarında həkk olunan informasiyanın kütləyə ötürülməsində başlıca funksiya olduğunu göstərilmişdir. İnformasiya resurslarının istiqaməti, informasiya resurslarının qiymətləndirilməsi, onlara əlçatarlığın təmin olunmasında məhz bu funksiyanın rolu böyükdür.

Abuzər Xələfovun "Müasir dövrdə kitaxana işinin nəzəri və təcrübi medodoloji əsasları haqqında", "Müasir şəraitdə kitabxanaların sosial funksiyaları" və başqa konseptual əsərlərində cəmiyyətdə baş verən sosial iqtsadi və mədəni proseslərin elmi şəkildə dərk edilməsi əsasında Azərbaycanda kitabxana işinin nəzəriyyə və təcrübəsinin inkişaf konsepsiyası hazıranmışdır ki, bu da yeni cəmiyyətin reallıqlarını özündə hərtərəfli əks etdirir. Müasir cəmiyyətdə Kitabxanaların sosial funksiya-

larına həsr olunmuş məqaləsində professor Abuzər Xələfov kitabxanaların sosial funksiyaları haqqında konsepsiyanı işləyib tamamlamış və zənginləşdirmişdir.